13 dekabr 2022-ci il, çərşənbə axşamı

Xalq qəzeti

# Nurlu şəxsiyyətin abidəsini yaratmaq həm məsuliyyət, həm də şərəfdir



Hər zaman, minlərlə vətənsevər soydaşımız Fəxri xiyabana gedib ulu öndərin məzarını ziyarət edir, abidəsi önündə baş əyərək tər gül dəstəsi qoymuşdur. İftixar hissi ilə xatırlatmaq istəyirəm ki, həmin abidənin müəllifi olmaq mənim qismətimə düşüb. Abidənin daha da möhtəşəm çıxmasının səbəblərindən biri də onun ölçülərinin həcmli olması və fonda iri qaya parçası üzərində Azərbaycan Respublikasının xəritəsinin verilməsidir. Əsəri bir il ərzində ərsəyə gətirə bilmişik. Möhtərəm Prezidentimiz İlham Əliyevin göstərişi ilə abidə tam olaraq tapşırıldığı müddətdə hazırlanıb.

Özümü həm də ona görə xoşbəxt sayıram ki, 2001-ci ildə qardaş Türkiyənin Qars şəhərində Heydər Əliyev adına parkda ucaldılmış büstü də mən yaratmışam. Bu, Heydər Əliyevin sağlığında xaricdə qoyulmuş ilk büstüdür. İndi dünyanın bir çox ölkəsində dahi rəhbərimizin abidələri qoyulub. Xatirəsinin əbədiləşməsi üçün mühüm addımlar atılıb.

Mən hər dəfə ulu öndərin işıqlı obrazını yaratdığım abidələrə baxanda həm kövrəlir, həm də qürurlanıram. Görüşlərimiz zamanı müşahidə etdiyim böyüklüyü, insanpərvərliyi, sənətə dəyər verməsi yada düşür. Böyük dövlət xadimi, Azərbaycanın xilaskarı, xalqın mənəvi atası olmuş Heydər Əliyevin müasiri olmağımız hər birimizin qəlbini iftixarla döyündürür. Qərinələr, əsrlər ötəcək, onun ölməz ruhu daim yaşayacaq, ideyaları bizi daha nurlu sabahlara qovuşduracaq.

**Ömər ELDAROV,**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı, akademik**